Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Kir Starmer rəsmən istefa verdi. Onu Endi Börnem əvəzlədi

indicə




Kir Starmer

Böyük Britaniyanın baş naziri **Kir Starmer** rəsmən istefa verib. Kral III Çarlz onun istefasını qəbul edib. Starmer kralla görüşdən əvvəl Dauninq-stritdəki iqamətgahının qarşısında sonuncu dəfə mətbuat qarşısına çıxıb.

**"Mənim missiyam başa çatdı. Altı il yarım ərzində partiyamızı 2019-cu ilin tarixi məğlubiyyətindən xilas etdim. Onu ölkə maraqlarına cavab verəcək şəkildə yenidən formalaşdırdım və 2024-cü il ümumi seçkilərində inamlı qələbəyə daşıdım"**, – deyə Starmer bəyan edib. Onun sözlərinə görə, hakimiyyətdə olduğu müddətdə Britaniya iqtisadiyyatı güclənib, immiqrasiya əhəmiyyətli dərəcədə azalıb, ölkənin müdafiə və təhlükəsizliyi isə daha möhkəm təməllər üzərində qərarlaşıb.

Andy Burnham enters 10 Downing Street as the new Prime Minister of the United Kingdom. pic.twitter.com/BdGjpE6gkT

— Clash Report (@clashreport) July 20, 2026

Starmer 2024-cü ilin iyulundan hökumətə rəhbərlik edirdi. Leyboristlər Partiyasının qələbəsi mühafizəkarların 14 illik hakimiyyətinə son qoymuşdu. Növbəti seçkilərdə partiyaya liderlik edib-etməməsi barədə daxili müzakirələrdən sonra eks-baş nazir hələ iyunun 22-də vəzifəsindən getmək niyyətini açıqlamışdı.

İyulun 17-də Leyboristlər Partiyasına yeni lider seçilib. Bu, Böyük Mançesterin sabiq meri və İcmalar Palatasının deputatı, 56 yaşlı **Endi Börnem**dir. O, iyulun 20-də baş nazir postunda Starmeri əvəz edib.

Börnem ilk rəsmi çıxışında əhalinin əksəriyyətinin həyat şəraitini yaxşılaşdırmağa yönəlmiş islahatlar aparacağını vəd edib. Onun hökumət başçısı kimi imzaladığı ilk sərəncam məhz evsizliklə mübarizəyə aid olub. Yeni baş nazir Londonun Ukraynaya dəstəyini davam etdirəcəyini vurğulayıb və yaxın vaxtlarda Volodimir Zelenski ilə telefon danışığı aparacağını bildirib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur